## TARİX

**UOT 94 (479.24)**
https://doi.org/10.59849/2218-4783.2026.2.7

# ERMƏNİLƏRİN NAXÇIVAN DİYARINA YİYƏLƏNMƏK CƏHDLƏRİ (XIX-XX əsrlər)

# ATTEMPTS OF ARMENIANS TO CLAIM THE NAKHCHIVAN REGION ($19^{th}$-$20^{th}$ Centuries)

**İsmayıl HACIYEV***

**XÜLASƏ**

Məqalədə rəsmi sənədlərə, arxiv materiallarına və tədqiqat əsərlərinə istinad etməklə XIX-XX əsrlərdə ermənilərin bölgəyə köçürülmələri və yerləşdirilmələrini yeni fakt və materiallar əsasında araşdırılmış, ermənilərin hansı məqsədlə bu ərazilərə köçürülmələri, "yeni vətən qazanacaqları" mövqeləri təhlil edilmişdir. Ermənilərin başqa ərazilərlə yanaşı, Naxçıvan diyarında yerləşdiklərindən sonra 1905-ci ildən başlayaraq "Daşnaksutyun" partiyasının "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək məqsədi ilə Naxçıvan diyarına sahib olmaq üçün ərazinin azərbaycanlı əhalisinə qarşı kütləvi qırğınlar, 1918-ci ildən isə soyqırımı siyasəti aparmaları faktiki materiallar əsasında araşdırılmışdır.

Burada böyük dövlətlərin həm də öz maraqlarına uyğun olaraq ermənilərdən bir vasitə kimi istifadə etmələri, Cənubi Qafqazda, Azərbaycan ərazilərində erməni dövləti yaratmaq siyasəti, Naxçıvan, Şərur-Dərələyəz ərazilərinin Ermənistana birləşdirmək sahəsindəki fəaliyyətləri əsaslandırılmışdır. Məqalədə Azərbaycan hakimiyyət orqanlarının fəaliyyəti, naxçıvanlıların inadlı müqavimətləri, ermənilərə qarşı mübarizələri də tədqiq edilir.

**Açar sözlər:** *Azərbaycan, Ermənistan, Naxçıvan, ermənilər, kütləvi qırğın, soyqırımı, köçürülmə.*

**ABSTRACT**

The article, based on official documents, archival materials, and scholarly studies, examines the resettlement and settlement of Armenians in the region during the 19th-20th centuries through newly identified facts and materials. It analyzes the purposes behind their migration to these territories and their position regarding the creation of a "new homeland."

The study further investigates, on the basis of factual materials, that after settling not only in other regions but also in the Nakhchivan area, Armenians-beginning from 1905-carried out mass killings against the Azerbaijani population in an effort to realize the "Great Armenia" ideology promoted by the Dashnaksutyun party, and from 1918 onward pursued a policy of genocide.

Additionally, the article substantiates how major powers, acting in accordance with their own interests, used Armenians as a tool, and explores their policies aimed at establishing an Armenian state in the South Caucasus and on Azerbaijani territories, as well as their activities directed toward incorporating the Nakhchivan and Sharur-Daralayaz regions into Armenia.

The research also examines the activities of Azerbaijani governmental institutions, the determined resistance of the people of Nakhchivan, and their struggle against Armenian forces.

**Keywords:** Azerbaijan, Armenia, Nakhchivan, Armenians, mass killings, genocide, resettlement.

*AMEA Naxçıvan Bölməsi, e-mail: haciyev.i1951@gmail.com
ORCID: 0000-0001-6217-7619

**GİRİŞ**

Erməni millətçilərinin uzun illərdir ki, "Böyük Ermənistan" dövləti yaratmaq xülyası ilə dəri-dən-qabıqdan çıxır, bir sıra böyük dövlətlərə yarınır və bununla da arzularına çatmaq istəyirlər. Məlumdur ki, Erməni dövləti IV əsrdə tarix səhnəsindən silinmiş, 387-ci ildə bu dövlət İran və Bizans arasında bölüşdürülmüşdür. 428-ci ildə isə İran erməni çarlığının varlığına son qoyulmuşdur. XI-XIV əsrlərdə isə ancaq Türkiyə ərazisində Kilikiya erməni çarlığı mövcud olmuşdur. 1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahanşahın icazəsi ilə erməni katolikoslarının fəaliyyət mərkəzi Kilikiyanın Sis şəhərindən Azərbaycana-İrəvan yaxınlığındakı Üçkilsə (Üçmüədzin) monastırına köçürülmüşdür. Bu vaxtdan Azərbaycanın Çuxursəd diyarında yerləşən Üçkilsə bütün ermənilərin dini mərkəzinə çevrilmişdir.

XX əsrin əvvəllərinədək faktiki erməni dövləti olmamışdır. Onlar müxtəlif dövlətlərin tərkibində yaşamışlar. Ermənilər XVIII əsrdən başlayaraq Azərbaycan ərazisində erməni dövlətinin yaradılmasına cəhdlər göstərmişlər. Rusiya hakim dairələri ermənilərin bu niyyətlərini dəstəkləmiş və onları öz fəaliyyətlərinə istiqamətləndirmişdir. Hələ I Pyotrun dövründən başlayaraq Rusiya regionda başlıca rəqibləri olan Osmanlı və Səfəvi imperiyalarını daxildən zəiflətmək üçün erməni kartından istifadə etmişdir. II Yekaterina da bu siyasətin gerçəkləşdirilməsində ermənilərdən bir alət kimi faydalanmağa çalışmışdır.

XIX əsrin əvvəllərindən başlayaraq Cənubi Qafqazın tutulması Rusiya imperiyasının işğalçılıq siyasətində mühüm yer tuturdu. 1813-cü ilə qədər Şimali Azərbaycanın bir sıra əraziləri və xanlıqları Rusiya tərəfindən tutuldu. Gülüstan müqaviləsi işğal faktını rəsmiləşdirdi. Sonrakı müharibələr zamanı Azərbaycan dövlətləri olan Naxçıvan və İrəvan xanlıqlarının ərazisi də işğal olundu. Türkmənçay müqaviləsi bunları təsdiq etdi. 1828-ci ildə bu xanlıqların əsasında "Erməni vilayəti" yaradıldı. 1840-cı ildə "Erməni vilayəti" ləğv edildi. Naxçıvan ərazisi "qəza" statusu ilə Gürcüstan-İmeretiya quberniyasının tərkibinə qatıldı. 1849-cu ildə İrəvan quberniyası yaradılarkən Naxçıvan və Ordubad da onun tərkibində qəza kimi qaldı. Quberniya və qəza inzibati-ərazi bölgüsü müxtəlif dəyişikliklərə məruz qalsa da 1917-ci ilə qədər bu formada saxlanıldı.

Rusiya-Qacarlar və Rusiya-Osmanlı müharibələrindən sonra çar Rusiyasının təhriki ilə ermənilər Qacarlar İranından və Osmanlı dövlətindən İrəvan, Naxçıvan və Qarabağ ərazilərinə kütləvi surətdə rəsmi və qeyri-rəsmi köçürüldülər.

Çar Rusiyasında bolşeviklər hakimiyyətə yiyələndikdən sonra ermənilər üçün Türkiyə ərazisində dövlət yaratmaq üçün cəhdlər göstərsə də bu baş tutmadı.

1918-ci ilin may ayında Cənubi Qafqazda 3 müstəqil dövlət – Azərbaycan, Gürcüstan və Ermənistan dövlətləri yarandı. Ararat Respublikası Azərbaycan torpaqlarında yaradıldı. Yerləşdiyi ərazi ilə kifayətlənməyən Ermənistan dövləti Azərbaycan şəhəri olan İrəvanı özünə paytaxt edə bildi və havadarlarının köməyi ilə ərazilərini bir neçə dəfə genişləndirdi. Bunun üçün Qərbi Azərbaycan ərazisində, eləcə də İrəvan şəhərində azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti həyata keçirərək, "Türksüz Ermənistan" yaratmağa nail oldu.

XIX əsrin sonu XX əsrin əvvəllərində ermənilər Naxçıvan diyarında yerləşdikdən sonra yerli azərbaycanlılara qarşı kütləvi qırğınlar və soyqırım siyasəti həyata keçirmişlər. Onların əsas məqsədi azərbaycanlıları Naxçıvan ərazisindən qovmaq və burada ermənilərin sayını çoxaltmaqla diyarı Ermənistana birləşdirmək idi. Bu sahədə böyük dövlətlər ermənilərə hər cür kömək göstərsələr də məqsədlərinə nail ola bilmədilər. Naxçıvan diyarı həmişə olduğu kimi, Azərbaycan ərazisi kimi qorunub saxlanıldı.

**ERMƏNİLƏRİN NAXÇIVAN DİYARINA KÖÇÜRÜLMƏSİ**

XIX əsrdə çar Rusiyasının Azərbaycanı işğal etməsində fəal iştirak edən, çarizmin müstəmləkəçilik siyasətinin aləti olan ermənilər bunun müqabilində bu ərazilərdə yerləşmək və dövlətlərini yaratmaq arzusunda olmuşlar.

Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi layihəsi hələ 1827-ci ildə A.S.Qriboyedovun başçılıq etdiyi Cənubi Qafqaz diyarının diplomatik dəftərxanasında hazırlanmışdı. Ermənilərin köçürülmələrinin əsas təşkilatçısı və rəhbəri general İ.F.Paskeviç, general P.D.Sisianov, general N.F.Rtişev, diplomat A.S.Qriboyedov, rus ordusunun polkovniki Q.Lazarev (erməni mənşəli zabit – İ.H.), knyaz Q.S.Qolitsın, erməni arxiyepiskopu Nerses və b. olmuşlar [Гаджиев, 2006: 110]. 1828-ci il fevralın 29-da İ.Paskeviç göstəriş vermişdi ki, ermənilər başlıca olaraq Naxçıvan və İrəvan vilayətlərində, qismən Qarabağda yerləşdirilsin, bir sıra müsəlman kəndləri dindaşlarının ən çox məskunlaşdığı yerlərə köçürülsün və həmin yerlər ermənilərə verilsin. Xristianları Naxçıvan və İrəvan vilayətlərinə getməyə razı salmaq lazımdı. Bu vilayətlərdə xristian əhalisini nə qədər mümkündürsə çoxaltmaq lazımdı [Qlinka, 1995: 42, 47-50].

Ermənilər Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə, yəni onlara daimi vətən yaratmaq niyyəti ilə köçürülürdü. Belə köçürülmə Türkmənçay müqaviləsinin 15-ci, Ədirnə müqaviləsinin 13-cü maddəsinə əsasən Qacarlar İranı və Osmanlı imperiyasında yaşayan ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi nəzərdə tutulurdu. Sərhəd ərazilərdə ermənilərin yerləşdirilməsi çarizmin müstəmləkəçilik niyyətlərindən irəli gəlirdi. Bu çirkin siyasətin həyata keçirilməsində Rusiya ordusunda xidmət edən erməni zabitləri fəal iştirak edirdilər. Bu prosesə şəxsən rəhbərlik edən Q.Lazaryan İran ərazisindən Şimali Azərbaycana köçürülən ermənilərə müraciətlə deyirdi: "...Orada (yəni Şimali Azərbaycanda – İ.H.) siz xristianların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz... İranın müxtəlif əyalətlərinə səpələnmiş xristianların bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək, bundan sonra sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz köçməyinizə cavabdeh olmayacağıq. Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik" [Глинка, 1831: 107-111].

Aparılan təbliğat nəticəsində İran erməniləri İrəvan və Naxçıvan vilayətlərinə köçürülmələrini istəyirdilər. Güney Azərbaycanın Təbriz, Marağa, Xoy, Maku, Salmas və b. bölgələrindən minlərlə erməni Naxçıvana köçürüldü [Вердиева, 1999: 106].

Bu zaman – 1828-ci il martın 21-də Çar Rusiyası Şimali Azərbaycanın İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti"ni yaratdı. "Erməni vilayəti" İrəvan, Naxçıvan əyalətinə və Ordubad dairəsinə bölünmüşdü. İrəvan əyalətinə 15 mahal (Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçenis, Səədli, Talın, Seyidli-Ağsaqqalı, Sərdərəbad, Körpübasar, Abaran, Dərəçiçək, Göyçə), Naxçıvan əyalətinə 5 mahal (Əlincəçay, Məvazixatun, Xok, Dərələyəz), Ordubad dairəsinə isə 5 mahal (Ordubad, Əylis, Dəstə, Biləv, Çənnəb) daxil idi. "Erməni vilayəti"nə 6949 erməni ailəsindən ibarət 35560 nəfər köçürülmüşdü [Şopen, 1852: 540, 635-642]. Bunun 23468 nəfəri İrəvan əyalətində, 10652 nəfəri Naxçıvan əyalətində, 1340 nəfəri isə Ordubad dairəsində yerləşdirildi. Köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində məskunlaşdırıldı. Naxçıvan şəhərində 416 ailə, Əbrəqunus kəndində 36, Bənəniyarda 43, Qazançıda 22, Xəlillidə 24, Kültəpədə 70, Nehrəmdə 208, Cəhridə 151, Ayrıncda 31, Qarabağlarda 24, Külüsdə 13, Nursuda 30, Şahbuzda 20, Gecəzurda 14, Məzrədə 22 [Naxçıvan, 1996: 117], Əylisdə 37, Aza, Dar, Dizə və Dırnısda 182 ailə [Azərbaycan, 1996: 96] yerləşdi.

İ.Şopenin məlumatına görə Rusiya işğalının ilk illərində Naxçıvan əyalətində 30.507 nəfər, Ordubad dairəsində isə 10.975 nəfər əhali var idi (Şopen, 1852: 638). Rusiya işğalınadək Naxçıvan əyalətində 434 erməni ailəsi olmuşdursa, sonrakı köçürülənlər hesabına erməni ailələrinin sayı 2719-a çatmışdı [Григорьев, 1833: 6: 127]. Köçkünlərdən 2285 ailə əyalətin Naxçıvan mahalında, 266 ailə isə Ordubad mahalında yerləşdirildi. Ümumiyyətlə, qeyri-rəsmi köçənlərlə birlikdə Şimali Azərbaycana gəlmiş erməni köçkünlərinin sayı 200 min nəfəri ötmüşdür [Гаджиев, 2016: 112]. Çarizmin bu mənfur siyasəti Naxçıvanda etirazla qarşılanmış, əhalinin böyük narazılığına səbəb olmuşdu.

Nehrəm kəndinin camaatı buna qəti etiraz etmiş və kəndlərində ermənilərə yer verməmişlər. Nəticədə onların Araz çayı sahilindəki torpaqları zorla əllərindən alınaraq ermənilərə verilmiş, orada onlar Təzəkənd yaşayış yerini salıb məskunlaşmışlar. Kəndin yuxarı tərəfindən təqribən 5 km Nehrəmdən aralı Güznüt kəndi də belə salınmışdır. Eyni hal Kültəpə, Bənəniyar kəndlərində də baş vermişdir.

Yararlı torpaqların köçkünlərə verilməsi yerli azərbaycanlı kəndliləri narahat etməyə bilməzdi. Onlar öz torpaqlarının bir hissəsindən məhrum olurdular.

Çar Rusiyası erməniləri Şimali Azərbaycan torpaqlarına, eləcə də Naxçıvan ərazisinə köçürməklə burada demoqrafik vəziyyəti dəyişdirmək, özünə dayaq yaratmaq məqsədi güdürdü. Ermənilər isə "Böyük Ermənistan" yaratmaq xülyalarını gerçəkləşdirmək, ilk növbədə isə erməni dövləti yaratmaq arzusu ilə kütləvi olaraq bu ərazilərdə məskunlaşırdılar.

Rus şərqşünası K.N.Smirnov köçürülən ermənilərin bölgədə yerləşdiyi əraziləri aşağıdakı kimi göstərir: Əliabad kəndinə Xoydan 136 nəfər, Şıxmahmud kəndinə Xoy və Salmasdan 430 nəfər, Qaraxanbəyli kəndinə Salmasdan 440 nəfər, Hacıvar kəndinə Salmasdan 102 nəfər, Aşağı Uzunoba kəndinə Xoydan 65 nəfər, Badamlı kəndinə Salmasdan 101 nəfər (Смирнов, 1999: 123-137), Qulubəy-Dizə kəndinə Urmiya və Salmasdan 136 nəfər, Kültəpə kəndinə Salmasdan 330 nəfər, Didivar kəndinə Salmasdan 15 nəfər, Nəzərabad kəndinə Xoy və Salmasdan 198 nəfər erməni köçürülmüşdü [Смирнов, 1999: 129, 131-132].

Naxçıvan diyarı tarixi Azərbaycan ərazisi olmaqla, onun yerli əhalisini azərbaycanlılar təşkil edirdi. Naxçıvan bölgəsi əhalisinin tərkibindəki ermənilər gəlmə idi. Gəlmə erməniləri də iki yerə bölmək olar: 1. Rusiya işğalınadək bu bölgəyə gələnlər; 2. İşğal zamanı və sonra gələnlər [Şahverdiyev, 2008: 126]. 1801-ci ildə Naxçıvan ərazisində 54,2 min nəfər azərbaycanlı, 7,4 min nəfər erməni olmuşdur. İşğal dövründə isə – 1826-cı ildə müvafiq olaraq 64,2 və 8,5 min nəfər idi ki, bu da ümumi əhalinin 81,7 və 10,8 faizini təşkil edirdi [Сафаров, 2009: 113]. Köçürmədən sonra isə – 1832-ci ildə azərbaycanlıların sayı azalaraq 49,7 min nəfərə (59,4 faizə) enmiş, ermənilərin sayı isə artaraq 29,2 min nəfərə (34,8 faizə) çatmışdır [Сафаров, 2009: 114]. 1826-1828-ci illər Rusiya-İran müharibəsi dövründə və müharibədən sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə bu yerlərə köçürülməsi nəticəsində əhalinin etnik tərkibində müəyyən dəyişiklik baş verdi. Fransız mənşəli rus tədqiqatçısı İ.Şopenin 1828-1832-ci illərdə rəsmən həyata keçirdiyi kameral təsvirin nəticələrinə görə, artıq burada 31.201 ailə, 164450 nəfər əhali qeydə alınmışdı. Onlardan 16078 ailə (81749 nəfər) müsəlmanlar (azərbaycanlılar); 4428 ailə (25151 nəfər) köçürməyədək burada yaşayan ermənilər; 6949 ailə (35560 nəfər) İrandan köçürülmüş ermənilər; 3682 ailə (21666 nəfər) Türkiyədən köçürülmüş ermənilər idi [Шопен, 1852: 635-642]. Gəlmə ermənilərin sayı Naxçıvan əyalətində 10589 nəfər (2145 ailə), Ordubad dairəsində isə 1340 nəfər (250 ailə) olmuşdu. Azərbaycanlılar bütün ailələrin 66,5 faizini, ermənilər isə 33,5 faizini təşkil edirdi.

Çar Rusiyası tərəfindən ermənilərin strateji yaşayış məntəqələrində yerləşdirilməsinə xüsusi diqqət yetirilirdi. Naxçıvan şəhərinə 416 erməni ailəsi köçürüldüyü halda burada 386 azərbaycanlı ailəsi yaşayırdı. Nehrəm kəndindəki 116 ailəyə qarşı 208 erməni ailəsi, Cəhri kəndindəki 168 ailəyə qarşı 151 erməni ailəsi köçürülüb yerləşdirilmişdi. Naxçıvan qəzasında köçürülməyədək 434 erməni ailəsi yaşayırdısa, köçürülmə prosesində buraya 2285 yeni ailə gətirilmişdi [Kazımov, 2007: 42].

1828-ci ilədək əhalisinin 92 faizi azərbaycanlılar olan Naxçıvan əyalətinə təkcə həmin ildə 12755 nəfər (2551 ailə) erməni köçürülmüşdür ki, bunlardan 2080 nəfər (416 ailə) Naxçıvan şəhərində, 9345 nəfər (1869 ailə) Naxçıvan əyalətində, 1330 nəfər (266 ailə) Ordubad dairəsində məskunlaşdırılmışdı. Naxçıvan əyalətinə köçürülmüş 1869 erməni ailəsinin 1127-si bu əyalətin tabeliyində olan kəndlərdə, 362-si Əlincəçay kəndlərində, 369-u isə Dərələyəz kəndlərində yerləşdirilmişdi [Cəfərli, 2009: 73].

Çarizmin köçürmə siyasəti ermənilərin sayının artmasına səbəb oldusa da, azərbaycanlılar öz say üstünlüklərini qoruyub saxladılar. Əhalinin ümumi sayında azərbaycanlıların faiz etibarilə azal-

ması özünü göstərirdi. Bu isə ermənilərin süni olaraq bu ərazilərə kütləvi köçürülməsi ilə əlaqədar idi. Köçürülən ermənilərin bir qismi elə ərazilərdə yerləşdirilmişdi ki, bu ərazilərdə yaşamaq üçün şərait yox idi. Ona görə də şərait yaranan kimi ermənilər bu əraziləri tərk edirdilər. Heç vaxt Naxçıvan diyarında ermənilərin artımı azərbaycanlılardan üstün ola bilmədi. Rus çarizmi, sonrakı dövrlərdə isə bolşevik hakimiyyəti istəsələr də belə, məqsədlərinə nail ola bilmədilər. Yerli əhaliyə düşmən münasibət bəsləyən ermənilər yaşamaq fürsətini itirdilər.

**KÖÇÜRMƏDƏN SONRA NAXÇIVAN DİYARININ ƏHALİSİ**

Çar Rusiyası bu ərazilərə ermənilərin kütləvi surətdə köçürülməsi ilə əhalinin demoqrafik vəziyyətində ciddi dəyişiklik yaratmaq fikrində idi. Bununla bu ərazilərdə erməni dövləti yaratmaq istəyirdi. Bu ilk mərhələdə "Erməni vilayəti"nin yaradılmasından başladı. "Erməni vilayəti" yaradılarkən onun tərkibində 752 kənd olmuşdur ki, onlardan 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52-si Ordubad dairəsində idi [Arzumanlı, 1998: 181-189]. Dağıdılmış, xaraba qoyulmuş kəndlərlə birlikdə "Erməni vilayəti"ndə cəmisi 1111 kənd olmuşdur. Bu kəndlərdə 81.749 müsəlman-azərbaycanlılar, 25.131 nəfər ermənilər olmuşdur [Гаджиев, 2016: 126]. Naxçıvanda isə 1828-ci ildə Ordubad da daxil olmaqla 4959 ailə yaşamışdır: 4149 azərbaycanlı ailəsi (83,6 faiz) və 810 erməni ailəsi (16,4 faiz).

"Erməni vilayəti" yaradıldıqdan az sonra onun başçısı vəzifəsinə milliyyətcə erməni olan D.O.Bebutov təyin olundu. O, 1830-1838-ci illərdə bu vəzifəni icra etdiyi müddətdə ermənilərin yerləşdirilməsi, maddi şəraitlərinin yaxşılaşdırılması, onların hakimiyyət orqanlarında təmsil olunması sahəsində xeyli iş gördü. Nəticədə işğal olunan ərazilərdə həm ermənilərin sayı artdı, həm də hakimiyyət orqanlarının əsas həlqələrində həlledici sahələri ələ keçirə bildilər.

İ.Şopenin məlumatlarından aydın olur ki, köçürməyədək Naxçıvan əyaləti və Ordubad dairəsində olan ermənilərin sayı 930 ailə, yaxud 5078 nəfər olmuşdur [Шопен, 1852: 635-636]. Rusiya tərəfindən ermənilərin Naxçıvana köçürülməsi ilə onların sayı da artır. Naxçıvan əyaləti və Ordubad dairəsinə İrandan 2387 ailə, yaxud 11992 nəfər, Türkiyədən isə 8 ailə, yaxud 27 nəfər köçürülür [Шопен, 1852: 637-638]. Nəticədə Naxçıvan bölgəsində ermənilərin sayı 3325 ailəyə çatdırılır. B.Qriqoryevin məlumatlarında fərqlilik özünü göstərir. Qriqoryevə görə 2551 ailə köçürülüb ki, bunun 416-sı (18,2 faiz) Naxçıvan şəhərində, qalan ailələr Naxçıvan əyalətinin 43, Ordubad dairəsinin 5 kəndində yerləşmişdi. Yerləşdirilən ermənilərin ümumi sayı 15.711 nəfər olmuşdur (Şahverdiyev, 2008: 147-149). 1829-cu il məlumatlarına görə Naxçıvan bölgəsində 8567 ailə və ya 40248 nəfər əhali yaşamışdır [Şahverdiyev, 2008: 118-119].

1849-cu ildə İrəvan quberniyası yaradıldıqda Naxçıvan bölgəsinin ərazisi Şərur sahəsini, Naxçıvan sahəsini və Ordubad qəzasını əhatə edirdi. 1850-ci ildə Naxçıvan bölgəsində 56 min ailə yaşayırdı. Həmin vaxt Ordubad qəzası ləğv olunaraq Naxçıvan qəzasına birləşdirilmişdi. Naxçıvan qəzasına Naxçıvan, Dərələyəz və Ordubad sahələri daxil idi. 1873-cü ildə Naxçıvan, Ordubad və Dərələyəz mahallarında 14359 ailə və ya 95874 nəfər əhali yaşayırdı [Şahverdiyev, 2008: 120]. 1886-cı ildə Naxçıvan bölgəsinin ümumi əhalisi 15351 ailəsindən, yaxud 108379 nəfərdən ibarət olmuşdu.

Naxçıvan tarixi Azərbaycan ərazisi idi və burada əsasən azərbaycanlılar yaşayırdı. Naxçıvan bölgəsi əhalisinin tərkibində ermənilər də olmuşdur ki, onlar gəlmə idilər. Ermənilərin bir qismi Rusiya işğalınadək bura gələnlər, bir qismi isə işğal zamanı və sonra bura köçürülənlər idi. İ.Şopenə görə Naxçıvan əyaləti üzrə Rusiya işğalınadək gəlmə ermənilər 530 ailə, yaxud 2690 nəfər idi. Ordubad dairəsi üzrə 400 ailə, yaxud 2388 nəfər olmuşdu. Müqayisə üçün qeyd edək ki, bu dövrdə azərbaycanlılar müvafiq olaraq 3863 ailə, yaxud 17138 nəfər və 1675 ailə, yaxud 7247 nəfər təşkil etmişdi. Gəlmə ermənilərin sayı Naxçıvan əyalətində 10589 nəfər, Ordubad dairəsində isə 1340 nəfər olmuşdu. Aydın olur ki, Rusiya işğalından sonra həmin dövr üzrə Naxçıvanda 8863 ailə qeydə alınmışdı ki, onlardan 5538 ailə (62,49 faiz) azərbaycanlı, 3325 ailə (37,51 faiz) erməni idi [Шопен,

1852: 635-642]. Naxçıvan bölgəsinin müasir sərhədlərinə görə hesablama aparılsa aydın olur ki, azərbaycanlılar bütün ailələrin 66,5 faizini, ermənilər isə yalnız 33,5 faizini təşkil edib.

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ERMƏNİLƏRİN NAXÇIVAN BÖLGƏSİ ƏHALİSİNƏ QARŞI QIRĞINLARI

XIX əsrin 70-ci illərində olmuş rus-türk müharibəsi nəticəsində Qars vilayətinə və Sürməli qəzasına 90 minə qədər erməni yerləşdirildi. Bu dövrdə ermənilərin Azərbaycana köçü yenidən intensivləşdi.

1897-ci ildə Naxçıvan əyalətində yaşayan 136536 nəfərdən 90397 nəfəri azərbaycanlı (66,3 faizi), 44604 nəfəri (32,7 faiz) erməni olmuşdur [NMRDA, 23: 22]. 12 ildən sonra – 1909-cu ildə bu nisbət müvafiq olaraq 56,7 faiz və 42,6 faiz oldu. XX əsrin əvvəllərinə aid olan məlumata görə, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının birlikdə əhalisi 182669 nəfərdir ki, bunun da 63,1 faizi müsəlmanlar, 36,7 faizi ermənilərdir [ARMDA, 51: 20, 22].

Çar hökumətinin müstəmləkəçilik siyasəti və xalq hərəkatı ilə mübarizə formalarından biri milli nifaq salmaq, millətlərarası toqquşmalar təşkil etmək idi. Həmin toqquşmalardan ilk ən böyüyü 1905-ci il fevralın 6-9-da Bakıda təşkil olundu [Azərb. Tar., 2008: 138]. Bakıdan sonra 1905-ci ilin may-iyun aylarında hadisələr İrəvan, Naxçıvan, Ordubad və b. əraziləri əhatə etdi. 1905-ci ilin may ayından başlayaraq Naxçıvan qəzasında ermənilərin azərbaycanlılara qarşı qırğınları başladı. Bu qırğınların tarixi ilk mənbələrdə, xüsusilə M.S.Ordubadinin "Qanlı illər" [Ordubadi, 1991] və Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" kitabında [Nəvvab, 1993] öz obyektiv həllini tapmışdır.

Ermənilərin Naxçıvanda törətdikləri vəhşiliklər iki mərhələdən ibarət olmuşdur: 1905-ci il 5-12 may və 26-30 noyabr [Şahverdiyev, 2008: 157].

Hadisələrin canlı şahidi olmuş ədibimiz M.S.Ordubadi milli ədavətin və qırğınların baş verməsinin dörd əsas səbəbini göstərir: erməni Daşnaksutyun komitəsinin tətbiq etdiyi müstəbid idarə üsulunun qanlı terrorlarla müşayiət olunması, hökumət məmurlarının törədilən vəhşiliklərə etinasızlığı və ya erməniləri aşkar, yaxud gizli şəkildə müdafiə etmələri, müsəlmanların elmsizliyi, silahlanması və müasir siyasi oyunlardan xəbərsizliyi və nəhayət, ermənilərin muxtariyyət istəyi [Ordubadi, 1991: 8-10].

M.S.Ordubadi göstərdiyi dörd səbəb içərisində birinci yerə Daşnaksutyun partiyasının fəaliyyətini qoyur. "Birinci səbəb, erməni Daşnaksutyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı... Bu sözləri insafı olan erməni və müsəlman inkar etməz, zənnindəyəm. Mənə yetişmiş 245 məktub, Daşnaksutyun partiyasının fəaliyyətinə dair dörd yüzdən artıq məlumatlar yazı stolumun üstündə durur" [Ordubadi, 1991: 8]. Müəllif 400-dən artıq məlumatdan yeddisini ayırır ki, onlardan biri də Naxçıvana aiddir: "Naxçıvan faciəsinə bir neçə gün qalmış bir nəfər müsəlmanın yerində namaz qıldığı məqamda daşnaksutyunlar tərəfindən şəhid edilməsidir". İkinci səbəb kimi məhəlli hökumət məmurlarının müharibə zamanı etinasızlığı qeyd edilir. Bu səbəbin isbatı üçün iki fakt göstərilir. Onlardan da biri Naxçıvana aiddir: "Bunlara şahid Naxçıvan uyezdinin naçalniki Angil kimi vicdansızların fitnəkar hərəkətləridir. Belə ki, yanan atəşləri söndürməyib, əksinə, caniləri bir sıra cinayətlərə sövq edirdi... Angil naçalniklərin lənətəlayiq hətəkəti nəticəsində Naxçıvanda ermənilər qəzəbə gəlib məğlub edildi. Məğlub olub da, sonrasında Krılov kimi kazak komandaları kazakları ermənilərlə əlbir edib, müsəlman dükanlarını yandırmaqla müsəlmanları canlarından əziz olan mallarına məhrum və naümid etdi" [Ordubadi, 1991: 9]. Digər bir fakt kimi general Qalaşçapovun Şuşadakı fəaliyyəti nümunə gətirilir. Üçüncü səbəb kimi müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmaları qeyd edilir. "Dördüncü səbəbə gəldikdə ermənilərin avtonomiya idarə muxtariyyəti həvəsində olmasıdır" [Ordubadi, 1991: 9-11].

M.S.Ordubadi erməni-müsəlman davasının birbaşa təşkilatçısının çarizm olduğunu açıq göstərməsə də, onun sözlərindən bunu anlamaq çətin deyil: "Süni və çoxdan bəri hər iki millətin zatına

qondarılmış iğtişaş bombası partladı və bütün Qafqaz aləmi bu bombanın təsir şiddətindən yanıb-yaxıldı, deyilsə, daha düz olar. Görəsən, o partlayıcı maddə həqiqətdə bomba imiş? Bəli, bu bomba fevralın altısında baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı” [Ordubadi, 1991: 13].

Ermənilər may ayında ciddi hazırlıq görərək, çoxlu silah-sursat toplamış və azərbaycanlıları qırmaq üçün hücum xətti seçmişdilər: “May ayının 5-də gündüz saat üç radələrində üç nəfər Cəhri kəndinin sakini olan müsəlmanlar erməni kəndi Şıxmahmud adlı yerdən keçdikləri vaxt ağır surətdə yaralanırlar”. Digər bir fakta görə “may ayının 7-də Tunbul adlı erməni-müsəlman kəndini keçdikdə bir müsəlmanı vurub öldürürlər”. Müsəlmanların mövqeyi ondan ibarət olur ki, bu işlərə qarşı qanuni tədbirlər görülsün. M.S.Ordubadi də bu hala xüsusi diqqət yetirərək yazmışdır: “May ayının 8-də İrəvan vitse-qubernatoru Baranovski İrəvandan şəhər qlavası Ağamalov ilə, daha bir ay qabaq Peterburqa getmiş şəhər qlavası Cəfərqulu xan Naxçıvanski ilə Naxçıvana daxil oldular. Onların gəlməsini eşitdikdə camaat qapıya tökülüb ermənilərin bu işindən şikayətə başlayırlar”. Bu arada şikayətlərin məzmunu və nəticəsi bəzi mühüm mülahizələrə əsas verir. Müsəlmanlar faktik olaraq ermənilərlə barışığa can atır və hökumətdən mühafizə arzu edirdilər. Hökumət isə heç bir tədbir görməmişdi. Bunun nəticəsi idi ki, ermənilər cinayətlərini davam etdirir. Bu dəfə cinayətlər daha amansız şəkil alır. Bir fakta görə “ayın 11-də Kültəpə adlı erməni kəndinin varlısı erməni fədailəri tərəfindən ailəsilə qətlə yetirildi. Ermənilər bunu da müsəlman camaatına nisbət verdilər. Lakin axırıncı təftişdə yuxarıda adı çəkilmiş partiya tərəfindən cəzalandığı məlum oldu” [Ordubadi, 1991: 19].

1905-ci ilin may ayında Ordubad qəzasının Tivi kəndində ermənilərlə azərbaycanlılar arasında baş vermiş münaqişə ilə əlaqədar buraya 500-ə yaxın əsgər və zabit göndərilmişdi. Sənədlərdən aydın olur ki, bu hərbi hissə kənddəki azərbaycanlılara qarşı zor tətbiq etmiş, onları yurdlarından qovmuş, adamları öldürmüş, əslində isə ermənilərə kömək etmişlər.

1905-ci ilin payızınadək, qırğınların nisbətən səngidiyi qısa müddətdən sonra noyabr ayında qırğınların yeni mərhələsinin başlanmasına birbaşa səbəbkar rus kazakları olmuşdular. Noyabrın 26-da guya asayişi bərpa edən kazakların evini talan etdikləri Çeşməbasar kənd sakini Hacı Nəsir Hacı Nağı oğlunun ailəsini məhv etməsi hadisələrin yenidən qızışması üçün ermənilərə bir işarə rolunu oynamışdı. Hadisənin əsas təşkilatçıları isə çar polkovniki Krılov və qəza polisi rəisi Angil olmuşdu. Kazakların köməyindən istifadə edən ermənilər noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman bazarını tamam qarət etdikdən sonra od vurmuşlar. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və b. tikililər yanıb külə dönmüşdü.

Noyabr ayının 30-da Cəhri kəndinin yandırılmasında da kazaklar ermənilərlə birlikdə hərəkət etmişdilər. Həmin gün Naxçıvana gəlmiş İrəvan general-qubernatoru Paskeviç nəinki hadisələrin təfsilatı ilə maraqlanmamış, əksinə, Cəhri kəndi tamam yanıb qurtarandan sonra, dekabrın 2-də kəndə yollanmış, naxçıvanlıların haqlı şikayətləri ilə bir daha qarşılaşmamaq üçün gecə ikən qatarla İrəvana qayıtmışdı.

Mir Möhsün Nəvvab da öz əsərində İrəvan, Şuşa, Tiflis, Gəncə, Qarabağ hadisələri ilə yanaşı Naxçıvan hadisələrinə də yer vermişdir [Nəvvab, 1993: 21-23]. Burada da ermənilərin dinc sakinlər üzərinə hücumu, onları qətlə yetirməsi təsvir edilmişdir. Burada çox maraqlı bir epizod da verilir. Özlərini müdafiə edən müsəlmanlar Böyük Badamlı kəndinə yaxınlaşdıqda “həmin kəndin bütün erməniləri gənc və qoca, böyük və kiçik öz külfətləri ilə müsəlmanların qarşısına çıxdılar. Tam ehtiramla kəlməyi-şəhadət deyib, müsəlmanlığı qəbul etdiklərini bildirdilər. Müsəlmanlar onları sevinclə sakitləşdirib, böyük ehtiramla oradan geri qayıtdılar”. Bu hadisə hakimiyyət dairələrində böyük təşviş yaradır. İrəvan qubernatoru ora gedərək onlara hədə-qorxu gəlir. “Yeni islam dinini qəbul etmiş ermənilər cavab verdilər ki, bizi heç kəs zor və hədə-qorxu ilə müsəlman etməyib. Əksinə, biz özümüz könüllü olaraq, öz razılığımız və rəğbətimizlə islam dinini qəbul etmişik” [Nəvvab, 1993: 22-23].

Naxçıvanda faciəli hadisələr yalnız 1905-ci ildə baş verənlərlə bitmədi. Naxçıvan qəzasının Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tunbul və onlarla başqa kəndlərini də əhatə edən erməni cinayətləri 1906-cı ildə də davam etdi.

Bu dövrdə yalnız Naxçıvan şəhərində deyil, Naxçıvan diyarının ayrı-ayrı kəndlərində məskunlaşmış ermənilər azərbaycanlılara qarşı qırğınlarda fəal iştirak etmişlər. Azərbaycanlılardan çoxsaylı öldürülənlər və əraziləri tərk edənlər olmuşdur. Məlumatlara görə, 1897-ci ilə nisbətən 1907-ci ildə Naxçıvanda azərbaycanlıların sayı 31279 nəfər (34,6 faiz) azalmışdı [Cəfərli, 2009: 181]. Əhalinin təbii artımını da nəzərə almaqla 1905-1907-ci illər azərbaycanlı qırğınlarının nəticəsində təkcə Naxçıvanda azərbaycanlıların sayının təxminən 2 dəfə azaldığını söyləmək olar.

Azərbaycanlılara qarşı törədilən qırğından nə çarizm, nə də ermənilər onların tamamilə məhv etmək planının həyata keçirib istədikləri nəticəni əldə edə bilmədilər. Lakin onlar eyni zamanda öz niyyətlərindən də birdəfəlik əl çəkmədilər.

**ERMƏNİLƏRİN NAXÇIVAN DİYARINI İŞĞAL ETMƏK CƏHDLƏRİ VƏ TÖRƏTDİK-LƏRİ SOYQIRIMILAR**

Rusiyada Fevral inqilabının qələbəsi imperiyanın asılı xalqlarının taleyində mühüm əhəmiyyətə malik oldu. Yaranmış ictimai-siyasi vəziyyət millətlərin öz müqəddəratlarını həll etmələrinə qismən də olsa şərait yaratdı. Bundan faydalanan və istifadə edən ermənilər Azərbaycanın bəzi əraziləri hesabına "Böyük Ermənistan" yaradılması həvəsinə düşdülər. Erməniləri həvəsləndirən əsas amillərdən biri də bu ərazilərdə ermənilərin yerləşməsi idi. Nəticədə bölgələrdə ikihakimiyyətlilik əmələ gəlmiş, erməni və müsəlman milli komitələri yaranmışdı. Xüsusi Cənubi Qafqaz Komitəsinin 1917-ci il 26 aprel və 1917-ci il 18 iyul tarixli qərarları ilə Bürhan bəy Maqsudov [NMRDA, 63: 15] və Mxitaryants [NMRDA, 63: 69] Naxçıvan qəzası üzrə müvəkkillər təyin edildilər. 1917-ci il sentyabrın 1-də B.Maqsudovu Baxşəli ağa Şahtaxtinski əvəz etmişdi [NMRDA, 63: 53].

Naxçıvan diyarının bir sıra kəndlərində yaşayan ermənilər artıq ərazi iddiaları ilə çıxış etməyə başlamışdılar. S.Şaumyanın Qafqazın Fövqəladə Komissarı təyin edilməsi erməniləri ərazi iddialarına daha da həvəsləndirirdi. Artıq ermənilər silahlanır və bəzi Azərbaycan kəndlərinə basqınlar edir, kəndləri talayırdılar. 1917-ci ilin yanvarından başlayaraq bölgənin ayrı-ayrı kəndlərində azərbaycanlılar ermənilər tərəfindən qətlə yetirilirdi. 1918-1920-ci illərdə Azərbaycanın bu qədim guşəsi və onun sakinləri də başqa torpaqlarımız kimi, erməni daşnaklarının düşmən siyasətinin hədəfinə çevrilmişdi. Həmin illərdə hadisələrin bilavasitə şahidi, Naxçıvan Müsəlman Milli Komitəsinin katibi olan Mirzə Bağır Əliyev gündəlik kimi yazdığı "Qanlı günlərimiz" əsərində [Əliyev, 1993] ermənilərin törətdikləri soyqırımı, şəhərin özündə və Naxçıvan diyarının müxtəlif bölgələrindəki vəhşilikləri, Andranik Ozanyanın Naxçıvana hücumu, türklərin Naxçıvana gəlmələri və s. təsvir olunur.

1917-ci ilin sonlarından başlayaraq Naxçıvanda ermənilər öz fitnəkar fəaliyyətlərinə yenidən başladılar. Çünki onlar artıq xeyli silah əldə etmişdilər. Artıq erməni korpusu formalaşmışdı və onun tərkibində 30 batalyon təşkil olunmuşdu [İsmayılov, 2019: 19]. Erməni hərbi qüvvələrinin müdaxiləsi ilə kəndlər dağıdılır, azərbaycanlılar ya öldürülür, ya da qovulurdu. Təkcə 1918-ci ilin fevral-mart ayları ərzində Naxçıvan ərazisində 30-a yaxın kənd məhv edilmişdi [İsmayılov, 2019: 20]. Naxçıvan şəhərinin Sarvanlar və Xoşullu məhəllələri dağıdıldı, Qaraxanbəyli, Hacıvar, Yarımca, Tumbul kəndlərində yaşayan ermənilər hadisələrə ciddi müdaxilə edirdilər.

1918-ci il aprelin 13-də ermənilər Əlincəçay vadisində yerləşən Bənəniyar, Qızılca, Saltaq, Noraşen, Xoşkeşin və b. kəndlərə hücum edərək bu yaşayış məntəqələrini dağıtdılar. Türkmənçay müqaviləsindən sonra gətirilib bu ərazinin Əbrəqunus, Qazançı, Paradaş, Güznüt kəndlərində yerləşdirilmiş ermənilər azərbaycanlıların yaşadıqları kəndlər üçün təhlükə mənbəyi idi.

Naxçıvan şəhərində aprel ayındakı qarşıdurmalar danışıqlarla qurtardı. Ermənilər aprelin 21-də 7 maddədən ibarət tələblər irəli sürsələr də qəbul edilmədi [Əliyev, 1993: 24-25].

1918-ci ilin may ayında Cənubi Qafqaz bölgəsində yeni tarixi şərait yarandı. Mayın 28-də Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Mayın 29-da Müsəlman Milli Şurası səhvə yol verərək İrəvanı ermənilərə güzəştə getdi.

1918-ci ilin iyunun 4-də Batum şəhərində Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında ayrı-ayrılıqda sülh müqaviləsi imzalanda (Шукюров, 2020: 383-395). Osmanlı hökumətinin Erməni Milli Şurası ilə bağladığı müqaviləyə görə Ermənistan Respublikasının ərazisi 10 min kv. km təşkil edirdi (bəzi tədqiqatlarda bu 9 min kv. km göstərilir – İ.H.).

Batum müqaviləsinin şərtləri və onlara əsasən də Azərbaycan Xalq Cümhuriyyəti (AXC) rəhbərlərinin Türkiyəyə müraciəti, həm də ermənilərin Naxçıvan bölgəsindəki azğınlıqları Osmanlı dövlətini qəti tədbirlər görməyə vadar etdi. Cəfərqulu xan Naxçıvanskinin və Kərim xan İrəvanlının xahişlərindən sonra 1918-ci ilin mayın 16-da Xəlil bəyin başçılığı ilə türk qoşunları Naxçıvana gəldi [Atnur, 2001: 29].

Andranik Ozanyanın quldur dəstələrinin bölgədə törətdikləri vəhşilikləri görən və azərbaycanlı əhalini xilas etməyə çalışan Türkiyə Mustafa Kamal Atatürkün tövsiyəsi ilə 1918-ci ilin yayında Naxçıvan bölgəsinə Kazım Qarabəkir paşanın komandanlığı altında silahlı qüvvələrin ön hissələrini yeritdi. Naxçıvan bölgəsinin müdafiəsi Kazım Qarabəkir paşanın komandanlığı altında olan I Qafqaz kolordusuna tapşırdı. Buna görə də Kazım Qarabəkir paşa avqustun 7-də Naxçıvanda öz qərargahlarını qurdu [Atnur, 2001: 60]. Bununla da Zəngəzur və onun ətrafında Andranikin başçılığı altında 8 minlik erməni qoşununun Naxçıvana hücumunun qarşısı alındı. Türk ordusu əhalini ermənilərin qırğınından xilas etdi. Lakin Naxçıvan camaatının dinc yaşaması cəmi bir neçə ay davam etdi. Osmanlı dövləti I Dünya müharibəsinin nəticəsinə görə Antanta dövlətləri ilə bağladığı Mudros müqaviləsinin 11-ci maddəsinə əsasən bir sıra yerlərdən, o cümlədən Azərbaycandan da qoşunlarını çıxarmalı oldu. Kazım Qarabəkir Paşanın komandanlığı altında türk qoşunu noyabrın 1-də Naxçıvanı tərk etdi. Bu hadisə Naxçıvanı çətin vəziyyətdə qoysa da çıxış yolu tapıldı.

1918-ci ilin noyabrın 18-də Araz-Türk Cümhuriyyəti yaradıldı (Musayev, 1966: 70). Hərbi-müdafiə problemlərinin həllində Araz-Türk Cümhuriyyətinin rəhbərliyi Türkiyənin yardımından istifadə etmişdi. Türkiyə dövlətinin Araz-Türk Cümhuriyyəti hökuməti yanındakı daimi hərbi müşaviri Xəlil bəy, Osmanlı qoşunları bölgəni tərk etdikdən sonra burada saxlanılan 5 zabit və 300 əsgər bu istiqamətdə müəyyən işlər görmüşdülər. Araz-Türk Cümhuriyyətinin hərbi qüvvələri 1919-cu ilin martınadək bölgəni erməni basqınlarından qorumuşdur. Bununla yanaşı Ermənistan Respublikası ərazisindən qovulmuş on minlərlə azərbaycanlı qaçqın Naxçıvana gəlmişdi. Naxçıvandakı hadisələr və vəziyyət Azərbaycan parlamentində müzakirə edilmiş və müvafiq qərar qəbul edilmişdir.

1918-ci ilin noyabrında general Tomsonun başçılığı ilə ingilis qoşunları Bakıya, 1919-cu ilin yanvarın ortalarında V.Hibbonun və F.Lautonun başçılığı ilə isə Naxçıvana gəldilər [Hacıyev, 2017: 124]. Bu dövrdə Naxçıvanda Cəfərqulu xanın rəisliyi ilə Naxçıvan Türk hökuməti yaradılmışdı. Lauton Naxçıvan hökumətinin başçısı Cəfərqulu xana ermənilərin öz yaşayış yerlərinə qaytarılmasını və onlar üçün Şərurdan 1000 pud taxıl buraxılmasını təklif etdi. Birinci məsələyə Paris sülh konfransından sonra baxılacağına, taxıl isə neft və şəkərlə mübadilə edilə bilər – cavabını vermişdi.

AXC hökuməti həmyerlilər cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırovun vəziyyəti öyrənmək üçün Naxçıvana göndərmişdi. M.Mirbağırovun təklifləri Naxçıvan diyarının qorunmasında əhəmiyyətli rol oynadı. 1919-cu il fevralın 28-də burada Bəhram xan Naxçıvanskinin rəhbərliyi ilə general – qubernatorluq yaradıldı [ARMDA, 22: 64]. Martın 16-da B.Naxçıvanskinin yerinə Zaqatala general-qubernatoru Haşımbəyov Naxçıvan genaral-qubernatoru təyin edildi [ARMDA, 102: 2]. İngilislərin məqsədi Naxçıvanda genaral-qubernatorluq yaradıb diyarı Ermənistana vermək idi. Bunun üçün layihələr hazırlayır, təkliflər verir, bir sözlə manevrlər edirdi. Azərbaycan hökuməti bunu bildiklərindən qəti etirazlarını bildirdilər. Lakin ingilislərin təzyiqi ilə 1919-cu il mayın 14-də Naxçıvanda erməni general-qubernatorluğu yaradıldı [Atnur, 2001: 179]. İngilis ordusunun köməyi ilə 1919-cu il iyununda daşnaklar Naxçıvanın bir hissəsini tutsalar da Naxçıvan Milli Komitəsinin hərbi hissələri ermənilərin nizami qoşununu əzərək onları Naxçıvan ərazisindən qovdular [Hacıyev, 2017: 245]. Ermənilər Baş Noraşendə 300 nəfər itirmiş, naxçıvanlılar 42 pulemyot, 4 top və xeyli silah-sursatı qənimət kimi götürmüşlər [ARDA, 80: 42-43]. Xanlıqlar kəndində 5 zabit, 95 əsgər əsir alın-

mış, 600 tüfəng əldə edilmişdi (Musayev, 1996: 180). Beləliklə Naxçıvan və rayonlarda gedən döyüşlər nəticəsində düşmənin 40 pulemyotu, 4 topu, 1 zirehli qatarı, xeyli həcmdə hərbi materialları əldə edilmiş, 800 erməni əsgəri və 8 zabiti əsir götürülmüşdür [İsmayılov, 2019: 81-82]. Nəticədə, Naxçıvan bölgəsində ingilislərin himayəçiliyi altında silah gücünə yaradılmış erməni idarəçiliyi iflasa uğradı. Səməd bəy Cəmillinski Naxçıvanın general-qubernatoru təyin edildi [Musayev, 1996: 183]. S.Cəmillinski də öz növbəsində Xəlil bəyi Naxçıvan qoşunlarının baş komandanı, Kəlbalı xanı isə onun köməkçisi təyin etdi.

Naxçıvan diyarında vəziyyəti çətinləşdirən başqa bir amil İrəvan quberniyasından zorla çıxarılmış və Naxçıvana pənah gətirmiş qaçqınlar idi. Bəzi məlumatlara görə qaçqınların sayı 70 min nəfərdən artıq idi [ARDA, 78: 4]. Qaçqınların problemlərini həll etmək üçün komitə yaradılmış və bu komitəyə B.Şahtaxtinski rəhbərlik edirdi [Musayev, 1996: 189].

İngilislərdən sonra Amerika nümayəndələri Naxçıvana təşrif buyurdular. Polkovnik V.Haskel Beşlər şurası adından Ali komissar kimi Cənubi Qafqaza göndərildi. V.Haskel Ermənistandakı çıxışlarında erməniləri müdafiə edəcəyini, Azərbaycandan Ermənistana qarşı düşmənçilik siyasətinə son qoymağı tələb edəcəyini bildirmişdi [ARDA, 146: 12]. Bakıda N.Yusifbəyli ilə görüşündə isə belə fikirlər söyləmədiyini, onun sözlərinin təhrif edildiyini bildirmişdi.

V.Haskel Naxçıvan və Şərur-Dərələyəz ərazilərinin idarə edilməsi üçün "birtərəf, neytral zona" yaradılması ilə bağlı əvvəlcə 12 maddədən ibarət, sonradan erməni maraqlarını əsas tutaraq 21 maddədən ibarət layihə təqdim etmişdi. Həmin layihələrə görə burada general-qubernatorluq yaradılmalı idi. Birinci layihəyə əsasən razı olan Azərbaycan hökuməti, II layihədən qəti imtina etdi. Belə olan halda V.Haskel Azərbaycan hökumətinə təzyiq edir və onu hədələyirdi [ARDA, 92: 2].

Naxçıvanda general-qubernatorluğun yaradılması layihəsi azərbaycanlıların kəskin etirazına səbəb oldu. Onların 1919-cu il sentyabrın 9-da Haskelə çatdırdıqları tələbnamədə [ARPİİİSSA, 58: 1-5] öz narazılıqlarını bildirirdilər. Naxçıvanda hakimiyyət nümayəndələri oktyabrın 1-də A.Robenzonla görüşlərində Naxçıvan, Şərur, Dərələyəz, Vedibasar və Millistan əhalisinin əksəriyyətinin Azərbaycan türkləri olduğunu, bu ərazilərin iqtisadi, siyasi, mədəni və strateji cəhətdən Azərbaycanın ayrılmaz hissəsi olduğu onun nəzərinə çatdırıldı [ARPİİİSSA, 58: 73].

1919-cu il oktyabrın 24-də C.Rey V.Haskelin 13 bəndlik bəyanatını S.Cəmillinski, Kəlbalı xan və Xəlil bəyə çatdırdı. Naxçıvan rəhbərləri bu layihəni də qəbul etmədilər, çünki bu layihədə də Azərbaycanın maraqlarına zidd olan maddə – dəmiryolu və teleqrafın qubernatorun nəzarəti altında qalması, idarəetmə xərclərinin yerli büdcə hesabına ödənilməsi və s. – olduğundan qəbul edilməsi mümkün deyildi [ARPİİİSSA, 57: 76].

Məqsədlərini həyata keçirə bilməyən Amerika nümayəndələri 1920-ci ilin yanvarında bölgəni tərk etdilər. Beləliklə, Azərbaycan hökumətinin ciddi səyləri və Naxçıvan əhalisinin inadlı mübarizəsi nəticəsində ermənilərin Naxçıvanı Azərbaycandan ayırmaq cəhdləri baş tutmadı. Bununla belə, 1918-1920-ci illərdə bölgə ərazisi dağıntılara, əhali isə soyqırımı və qaçqına çevrilməsinə məruz qaldı. Sənədlərdən və arxiv materiallarından aydın olur ki, 1917-ci ilin sonlarından başlayaraq 1920-ci ilin iyuluna kimi erməni hərbi hissələri tərəfindən başda A.Ozanyan, Njde, Dron, Gibbon, Doluxanov və başqa daşnakların başçılıq etdikləri erməni quldur dəstələri Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında 50-dən artıq Azərbaycan şəhər və kəndlərinə basqınlar etmiş, dağıtmış, yandırmış, 73727 nəfəri vəhşicəsinə qətlə yetirmiş [Гаджиев, 2016: 134], canlarını qurtaranlar isə öz yurdlarından didərgin düşmüşlər. Naxçıvan bölgəsinin qəhrəman övladlarının 38 faizindən çoxu ya həlak oldu, ya da əraziləri tərk etdilər [Cəfərli, 2009: 225]. Bununla belə qəhrəman naxçıvanlılar erməni işğalçılarını ərazidən qovdular.

Ermənistan Respublikasının birinci baş naziri Ovanes Kaçaznuni 1923-cü ildəki çıxışında bunu etiraf edərək demişdir: "...inzibati tədbirlərlə müsəlman rayonlarında qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın salmağa məcbur olduq və hətta uğursuzluğa

uğradıq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik" [Качазнуни, 1990: 33].

Azərbaycan Demokratik Respublikasının baş naziri Nəsib bəy Yusifbəyli isə Parlamentdəki çıxışında demişdir: "Cəsur naxçıvanlılar, şərurlular... özləri bu məsələni (Azərbaycan Cümhuriyyəti ilə birləşmək məsələsini – İ.H.) həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və əmlaklarını risk edərək, doğma torpağa – Vətənə birləşmək üçün özləri ayağa qalxdılar, azad oldular" [Азербайджанская Республика, 1998: 403].

Azərbaycan Sovet Respublikası hökumətinin Moskvadakı səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski isə 1920-ci il avqustun 13-də Leninə göndərdiyi məktubda yazırdı: "Naxçıvan ölkəsi əhalisi bir neçə il ərzində öz müstəqilliyini daşnaklardan qoruyub saxladı. Bütün cəhdlərə baxmayaraq daşnaklar Naxçıvana yiyələnə bilmədilər" [ARPİİİSSA, 71: 14-15].

Lakin bolşeviklərin siyasi hakimiyyəti illərində (1920-1991) Ermənistan Respublikası məkrli siyasətlərini Sovet rəhbərlərinin köməyi ilə davam etdirərək Azərbaycan, eləcə də Naxçıvan torpaqları hesabına öz ərazilərini 10 min kv. km-dən 29,8 min kv. km-ə çatdırdılar. Tarixi Azərbaycan ərazisi olan indiki Ermənistan Respublikası ərazisindən minlərlə azərbaycanlını soyqırım və deportasiyaya məruz qoyaraq "türksüz Ermənistan" yaratdılar.

**NƏTİCƏ**

Azərbaycan torpaqlarının əsrlər boyu məruz qaldığı təcavüz bütövlükdə xalqımızın həyatında, ölkəmizin tarixində ağır iz buraxmışdır. Strateji cəhətdən əlverişli ərazidə yerləşən ölkəmiz bir sıra dövlətlərin maraq dairəsində olmuşdur. XVIII əsrdən başlayaraq müxtəlif dövlətlərə yarınan ermənilər həmin dövlətlərin əlində bir vasitəyə çevrildi. Öz maraqlarını yerinə yetirən böyük dövlətlər ermənilərin "Böyük Ermənistan" xəyallarının reallaşmasına ümidlər verirdi. "Böyük Ermənistan"ın yarana biləcəyi ərazi Türkiyə və Azərbaycan torpaqları ola bilərdi.

Rusiya-Türkiyə və Rusiya-İran müharibələrində Rusiyaya yaxından kömək edən ermənilərin də öz umacaqları var idi və bunu Rusiyaya anladırdılar. Bu siyasət Rusiyanın da maraqlarına cavab verirdi. Şimali Azərbaycanı işğal edən Rusiya imperiyası bu ərazidə öz dayaqlarını möhkəmləndirmək üçün ermənilərdən istifadə etdi, İran və Türkiyə ərazisindən 124 min erməniyə rəsmi olaraq dəstək verərək Naxçıvan, Qarabağ və Qərbi Azərbaycan ərazilərinə köçürdü. Bu ərazilərdə müsəlmanlar, əsasən Azərbaycan türkləri yaşayırdı. Paskeviçin göstərişi ilə köçürülən ermənilər daha çox Naxçıvan, İrəvan və Qarabağ ərazilərində yerləşdirildi. Gələcək "Böyük Ermənistan" üçün zəmin hazırlandı. İlk mərhələdə Naxçıvan və İrəvan xanlıqları ərazilərində "Erməni vilayəti" yaradıldı. Ermənilərin üstünlüyünə şərait yaradılır və hakimiyyət strukturlarında onların daha çox təmin olunmaları ardıcıl yerinə yetirildi. XIX əsr boyu, XX əsrin əvvəllərində də ermənilər müxtəlif ölkələrdən bura köçürülürdü. Məqsəd ərazidə yaşayan əhalinin demoqrafik tərkibində ermənilərin sayı və tərkibi artırılsın. Savrovun qeyd etdiyi kimi, artıq 1911-ci ildən Cənubi Qafqazda ermənilərin sayı 1 milyon 300 min nəfərə çatdırılmışdı ki, bunun 1 milyonunu çar Rusiyası bura köçürmüşdü.

Ermənilər Naxçıvan diyarının şəhər və kəndlərində məskunlaşdırıldıqdan sonra onların iddiaları artdı. 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törətməyə başladılar. Ermənistan dövləti Azərbaycan torpaqlarında yaradıldıqdan sonra ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasətinə başladılar. Təbii ki, böyük dövlətlərin himayəsi, dəstəyi və köməkliyi ilə. XIX sərin II yarısında əhalinin milli tərkibində azərbaycanlılar 80-85 faiz olduğu halda, XX əsrin 20-ci illərində bu nisbət 65-70 faizə düşdü.

Ermənilər diyarın azərbaycanlı əhalisinə qarşı açıq müharibəyə başlayır, yaşayış şəhər və kəndləri dağıdır, yandırır və əhalini didərgin salırdılar. Hərbi cəhətdən üstünlük qazanan ermənilər bir çox hallarda məqsədlərinə müvəffəq olurdular. Bunun başqa bir səbəbi isə M.S.Ordubadinin yaz-

dığı kimi ermənilərin təşkilatlanmaları, məmurların erməniləri müdafiə etmələri, müsəlmanların isə müasir işlərdən bixəbər olmaları və pis silahlanmaları onları çətin vəziyyətə saldı.

Çar Rusiyası, sonradan isə Sovet Rusiyası, İngiltərə və ABŞ dövlətlərinin ikili siyasəti, Naxçıvan bölgəsinin Ermənistan dövlətinin tərkibinə verilməsi istiqamətlərindəki fəaliyyətləri, Azərbaycan hakimiyyət strukturlarını və Naxçıvanın azərbaycanlı əhalisinin ərazi bütövlüyü uğrunda qətiyyətli mübarizələri, Türkiyə dövlətinin imkanlarından istifadə etmələri Naxçıvan diyarının Azərbaycan ərazisi kimi qorunub saxlanmasını – müəyyən torpaqlar itirilsə də belə – təmin etmişdir. Məqalənin yazılmasından əldə olunan mühüm nəticələr bunlardır.

## ƏDƏBİYYAT


Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 837, siy. 1, iş 22.

ARDA, f. 894, siy. 2, iş 102.

ARDA, f. 894, siy. 4, iş 66.

ARDA, f. 894, siy. 10, iş 80.

ARDA, f. 894, siy. 10, iş 88.

ARDA, f. 894, siy. 10, iş 99.

ARDA, f. 897, siy. 1, iş 51.

ARDA, f. 897, siy. 1, iş 78.

ARDA, f. 970, siy. 1, iş 92.

ARDA, f. 970, siy. 1, iş 146.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi (ARPİİİSSA), f. 276, siy. 9, iş 41.

ARPİİİSSA, f. 277, siy. 2, iş 57.

ARPİİİSSA, f. 277, siy. 2, iş 58.

ARPİİİSSA, f. 609, siy. 1, iş 71.

*Azərbaycan tarixi* (7 cilddə, 5-ci cild: 1900-1920-ci illər). (2008). Elm.

*Azərbaycan tarixində Naxçıvan*. (1996). ADPU.

*Азербайджанская Республика. Документы и материалы. 1918-1920*. (1998). Элм.

Atnur, İ.E. (2001). *Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921)*. Türk Tarih Kurumu.

Arzumanlı, V. və Mustafa, N. (1998). *Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq*. Qartal.

Cəfərli, E. (2009). *Naxçıvanda erməni-Azərbaycan münaqişəsi*. Nurlan.

Əliyev, N. (2007). *1917-1920-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənbələrdə*. Nurlan.

Əliyev, M.B. (1993). *Qanlı günlərimiz (1918-1920)*. Azərnəşr.

Hacıyev, İ. (2021). *Araz-Türk Cümhuriyyəti*. Əcəmi.

Hacıyev, İ., Şıxəliyev, E., Cəfərli, E., və Şabanov, M. (2017). *Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri*. Elmin İnkişaf Fondu.

İsgəndərov, A. (2012). *Azərbaycan həqiqətləri (1917-1920)*. Elm və təhsil.

İsmayılov, K. (2019). *Azərbaycanın Naxçıvan bölgəsi regional hərbi-siyasi proseslərdə (1917-1920)*. Turxan.

*İrəvan xanlığı, Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi*. (2009). Azərbaycan.

Kazımov, İ. (2007). *Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər)*. Elm.

Качазнуни, Ов. (1990). *Дашнакцутюн больше нечего делать*. Элм.

Köçərli, T. (2005). *Naxçıvan: uydurmalar və tarixi həqiqətlər*. Təknur.

Гаджиев, И. (2016). *Территориальные притязания и правовые преступления армян против Азербайджана*. АП Столица.

Qlinka, S.N. (1995). *Azərbaycan ermənilərinin Rusiya hüdudlarında köçürülməsinin təsviri*. Azərbaycan.

Глинка, С.Н. (1831). *Описание переселения армян азербайджанских в пределы России*. В тип. Лазаревых ин-та вост. яз.

Григорьев, В. (1833). *Статистическое описание Нахчыванской провинции*. Типография Департамента Внешней Торговли.

Musayev, İ. (1996). *Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)*. BDU.

Мильман, А. (1966). *Политический строй в Азербайджане в XIX – начале XX веков*. Азернешр.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f. 314, siy. 1, iş 18.

NMRDA, f. 314, siy. 1, iş 19.

NMRDA, f. 314, siy. 1, iş 20

NMRDA, f. 314, siy. 1, iş 21

NMRDA, f. 314, siy. 1, iş 23

NMRDA, f. 314, siy. 5, iş 9

NMRDA, f. 314, siy. 5, iş 12

NMRDA, f. 314, siy. 5, iş 20

NMRDA, f. 314, siy. 5, iş 63

NMRDA, f. 314, siy. 5, iş 70

*Naxçıvan tarixindən səhifələr*. (1996). ADPU.

Nəvvab, M.M. (1993). *1905-1906-cı illərdə erməni-müsəlman davası*. Azərbaycan.

Ordubadi, M.S. (1991). *Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi.* QXYK.

Сафаров, Р. (2009). *Изменения этнического состава населения Иреванской губернии в XIX – XX веках*. Сада.

Смирнов, К.Н. (1999). *Материалы по истории и этнографии Нахичеванского края*. Озан.

Şahverdiyev, Z. (2008). *Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində*. Elm.

Шавров, Н.Н. (1911). *Новая угроза русскому делу в Закавказье*. Рус. собрание.

Шопен, И.И. (1852). *Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи*. Типография Императорской Академии Наук.

Шукюров, К. (2020). *Азербайджан в системе международных отношений: 1648-1991. Документы и материалы.* Элм.

Вердиева, Х.Ю. (1999). *Переселенческая политика Российской империи в Северном Азербайджане.* Ecoprint.

**Daxilolma tarixi: İlkin variant 18.05.2026**
**Son variant 10.06.2026**